**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**№ 159 (2007) 22 oktyabr 2019-cu il**


# Xurşidbanu Natavan həyatı və yaradıcılığı fonunda

**(əvvəli ötən saylarımızda)**

X. Natəvanın ”Neçin gəlməz” rədifli qəzəli məzmununa görə son nəfəsində övladalarını gözləyən ananın, yaxınlarının gəlişinə müntəzir xəstənin son piçıltıları kimi səslənir:

**Qoyubdur intizarında, neçin gəlməz, neçin gəlməz?**
**Həmişə ahü zarında, neçin gəlməz, neçin gəlməz?**

**Üzüldüm karivanımdan, əl üzdüm xanimanımdan,**
**Fələk incir fəqanımdan, neçin gəlməz, neçin gəlməz?**

**...Qalıbdır Natəvan nalan, gecə-gündüz olur giryan,**
**Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz.**

”Ağlaram”, ”Ağlar”, ”Olaydı” rədifli qəzəlləri, o cümlədən

**Gəl, ey xəyali-vüsal, ölüm zamanıdı, gəl.**
**Ölən zəmanidə, cana, aman amandı, gəl.**

mətləsi ilə başlayıb,

**...O qədər nazını çəkdim, ölüm yetişdi mənə.**
**Nə naz vəqtidi, dilbər, ölüm zəmanıdı, gəl.**

**...Pozuldu gülşəni-eyşim, cəfayi-hicrin ilə,**
**Əsibdi badi-əcəl, ömrümün xəzanıdı, gəl.**

beytləri ilə davam edən qəzəlində də Natəvanın paralanmış qəlbinin fəryadları eşidilməkdədir. Yaşar Qarayevin təbirincə desək, ”Xudafiz” rədifli qəzəlində isə ölüm yatağında can verən, həyata vida deməyə hazırlaşan X. Natəvan həyati nemətlərə və dəyərlərə də vida edir. Həyatdan sonra, həyatdan kənarda heç bir ”ikinci həyat” inamı ilə, ”ümidi-vəsl” xəyalilə də özünə təsəlli vermir. Elə ona görə də hər cür vüsaldan onu ” bu dünyada” məhrum edən rəqiblərə və ara vuranlara, riyakarlara, ikiüzlü xainlərə lənət oxuyur:

**Rəqiblər qoymadı yetsin əlim bir daməni -vəslə,**
**Xəyalınla keçirdim ömrümü nalan, xüdahafiz!**

**...O gün ki, məhşəri-kübra olur, vəhm et o gündən kim,**
**Tutan damanını, dildən çəkəm əfqan, xüdafiz!**

**Üzüb əl Natəvan candan ki, ta ümmidi-vəsl etməz,**
**Dili-qəmgin, cigər pürxun olub suzan, xüdahafiz.**

Bu misralarda bu dünyadakı bütün pisliklərlə xudahafizləşib, axirət dünyasına bir parça nur şəklində qədəm qoymaqda olan bir insan ürəyinin son döyüntüləri eşidilməkdədir.

**Məndən olsa, doğulmazdım, nə edəydim?**
**Ölməzdim də, bu arzuma kaş yetəydim.**
**Bundan gözəl, bundan yaxşı nə olardı?**
**Nə gələydim, nə qalaydım, nə gedəydim.**

(Bax. X. Natəvan. Əsərləri. Tərtib edəni: Bəylər Məmmədov. 88 s. Bakı, ”Lider”, 2004.Səh.43) ittihamı hələ 1070-1150-ci illərdə ömür sürmüş Sənai Qəznəvidən ”Nə eşq olaydı, nə aşiq” deyən Hüseyn Cavidə qədər bütün klassiklərin duyğu və düşüncə çevrəsinə daxil olan bir ittihamdır.

Bu -işıqda və qaranlıqda cılğılıq axtaranların fəlsəfəsidir- insanın xislətindən gəlir:

**Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!**
**Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı**

**...Nə bəhr olaydı, nə ümman, nə böylə göz yaşı cari,**
**Nə gül üzündə, ilahi, bu növi şəbnəm olaydı.**

**...Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,**
**Nə Natəvanın, ilahi, həvası dərhəm olaydı.**

Nəhayət, bütün ağrılara son qoyan ölüm X. Natəvanı da haqlayır. O, 1897-ci il oktyabrın 1-də (Bəzi mənbələrə görə, oktyabrın 2-də Şuşada vəfat edir, çox ehtimal ki, oktyabrın 2-də Ağdamda, Cavanşir şəcərəsinin ailə qəbirstanlığı olan ”İmarət” məqrəbəsində dəfn olunur.




***

”Bir ucu olumlu, bir ucu ölümlü dünyanın” XIX əsr zaman kəsiyində- xanlı Qarbağın xansız günlərində ”Xan qızı” adıyla yerinə və yerlilərinə havadarlıq edən Natəvanın yoxluğu Rusiya, Orta Asiya, Türkiyə və İranı gəzdikcə vətənini gözləri önündə canlandıran Məmo bəy Məmainin fəryad dolu ürəyinin acı naləsi kimi öz ifadəsini tapırdı. Çünki Natəvanın ölümündən sonra ”Məclis-üns” də dağılmışdı:

**Bir bikəsi zarəm, vətənimdə vətənim yox!**
**Bir bülbüli-bibalü pərəm, vay, çəmənim yox!**

**...Viranə qalıb ”Məhfili-üns”üm dağılıbdır,**
**Nə yar, nə qəmxar, nə bir həmsüxənim yox.**

**...Bir yanda vətən təhlükəsi canımı almış,**
**Bir fəhm edənim, anlayanım, dərk edənim yox!**

**Ərbabi-kəmalət zamanı getdi, Məmai,**
**Qaldı bu bəla dəştdə, imdad edənim yox!**

***

XX əsrdə isə xalqımıza və ədəbiyyatımıza qarşı imperiya münasibətində forma dəyişsə də, məzmun dəyişmədi. Bununla belə, elə o mənfur imperiyanın tüğyan etdiyi o illərdə Bakıda Natəvanın heykəli (1960, heykəltəraş Ömər Eldarov) ucaldılmışdır.

Ağdamda qəbri üzərinə obelisk vurulmuş, Şuşada ona büst (heykəltəraş Namiq Dadaşov) qoyulmuşdu. Hələ Sovetlər dönəmində M.Rahim ”Natəvan” (1962) poemasını, Əzizə Cəfərzadə ”Natəvan haqqında hekayələr”ini (1963), H. Əliyeva ”Natəvanın tikmələri” (”Qobustan”. 1970, №1) məqaləsini, İ.Əfəndiyev ”Xurşidbanu Natəvan” (1980) pyesini yazmışdı. Sonrakı illərdə və müstəqillik dövründə Bəylər Məmmədov ”Natəvanın şair qohumları” (1989), Vasif Quliyev ”Dünənə uzanan cığır” (2000), Cəmil Tağıyev”Xan qızı” (2011) kimi yaddaş yüklü əsərləri ilə X. Natəvanlı coğrafiyanı daha da genişləndirmiş oldular.

Əslində isə Sovet dönəmi boyunca sürgünlərə və deportasiyalara məruz qalan Azərbaycan türkləri, nəhayət, 1987-ci il hadisələrinin axarında daha böyük işğallara məruz qaldılar. İşğalçı ruslara arxalanan və mənbəyi məlum olmayan qisasçılıq hissi ilə alışıb yanan ermənilər 8 may1992-ci ildə Şuşanı işğal etdilər. U. Hacıbəyovun, Bülbülün, o cümlədən X.Natəvanın büstünü güllələdilər, onların tuncdan tökülmüş büstlərini yerindən çıxarıb tullantı metal qismində gürcü möhtəkirlərinə satdılar və Qırmızı Xaş Komitəsinin əli ilə o büstlər gəlib Azərbaycana çıxdı. Hal-hazırda X. Natəvanın o güllələnmiş və baş barmağını güllə aparmış büstü Ü. Hacıbəyovun və Bülbülün büstləri ilə yanaşı Bakı İnəsənət Muzeyinin həyətində açıq havada saxlanır. İngilis jurnalist Tom de Vaal ”Çernıy sad”. Qlava 12. Şuşa. Poslednəə üitadelğ” (”Qara bağ” Fəsil 12. Şuşa. Sonuncu istinadgah”) adlı memuar-məqaləsində yazır: ”Zaxvativ qorod, armənе v otmestku demontirovali i prodali bronzovıе böstı trex azerbaydjanskix muzıkantov i pogtov, urojenüev Şuşi, priçem i gti relikvii bıli çudom spasenı, na sey raz blaqodarə skuphiku metalloloma v Tbilisi. Ə videl gti tri bronzovıx bösta - v plaçevnom sostoənii, so sledami ot pulğ, oni valəlisğ vo dvore ştab-kvartirı Krasnoqo Kresta v Baku: pogtessa Natevan s pokrıtoy platkom qolovoy, derjahaə kniqu v ruke s otbitım bolğşim palğüem; kompozitor Qadjibekov, ispehrennıy puləmi, v dvubortnom pidjake i slomannıx oçkax, i znamenitıy peveü Bölğ-Bölğ, poxojiy na mıslitelə..s vıpuklım bronzovım lbom”.

**Tərcüməsi:** ”Şəhəri işğal edən ermənilər qisasçılıq hissi ilə Şuşada doğulmuş üç musiqiçi və şairin tunc büstlərini aşırıb satdılar. Elə bu səbəbdəbn bu relikviyalar (müqəddəs sayılan şeylər-V.As.) Tbilisidə metal tullantısı yığan möhtəkirlərin sayəsində təsadüfən xilas edilmişdi. Mən bu üç tunc büstü cəllad əlindən çıxmış vəziyyətdə, güllələr ilə dəlik-deşik edilmiş şəkildə Bakıdakı Qırmızı Xaç Komitəsinin ştab-kvartirasının həyətinə necə gəldi atılmış gördüm: əlində kitab tutan, başı örtüklü şairə Natəvanın baş barmağını güllə aparmışdı. Eynəyi sındırılmış, ikiyyanlı düyməsi olan pencək geyinmiş bəstəkar Hacıbəyovun büstü güllələnib şadara-şabaş edilmişdi. Məşhur müğənni Bül-Bül qabarıq tunc alnı ilə mütəfəkkirə bənzəyirdi”...

Hal-hazırda Qarabağı işğal edilmiş X.Natəvanın Mingəçevirdə adına kitabxana vardır, Bakının uşaq kitabxanası onun adını daşıyır. Beyləqandakı Milabad kənd orta məktəbi X. Natəvanın adınadır. N. Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin Natəvan adına Qarabağ filialı yaradılmışdır. AMEA Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən elmi-praktik

Natəvan konfransında muzeyin direktoru Rafael Hüseynov heykəltəraş Akif Əsgərov tərəfindən Natəvanın və Aleksandr Düma Perin bürüncdən heykəlinin düzəldiləcəyini, kiçik variantının muzeydə Natəvan guşəsində nümayiş etdiriləcəyini, heykəlinin isə Parisdə ucaldılacağını söyləmişdir. Parisdə ucaldılacaq heykəlin dörd tərəfində Natəvanın şeirlərindən parçalar, Aleksandr Düma Perin ”Qafqaz səfəri”indən sətirlər yazılacaqdır. X. Natəvanın ” Gül dəftəri” adlı albomu əsasında kitab yazılacaq,

Azərbaycan və ingilis dillərində nəşr ediləcəkdir.

Natəvan irsi dünya dillərinin tərcümə edilib yayılacaqdır.

2014-cü ildə X. Natavanın adına Azərbaycanda poçt markası buraxılmış, 2016-cı ilin 18 fevralında Belçikanın Vaterloo şəhərinin mərkəzi parkında xalq rəssamı Tahir Salahovun rəhbərliyi ilə heykəltəraş İmran Mehdiyev tərəfindən ona heykəl qoyulmuş, internet məlumatlarına görə, 2017-ci ildə Fransanın Evyan lö Bən şəhərində X.Natavana qoyulan heykəlin açılışı olmuşdur. 3 iyun 2018-ci ildə isə Azərbaycanımızın Quba rayonunda X. Natəvanın şərəfinə daha bir abidə (Heykəltəraş Ayxan Səidzadə) ucaldılmışdır.

***Vaqif Aslan***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR